**Etik davranış məsələləri ilə bağlı 2022-ci il üzrə məlumat**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020 – 2022-ci illər üçün Milli Fəaliyyət Planı" ilə əlaqədar olaraq 2022-ci il 18 noyabr tarixində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnsan resurslarının idarə edilməsi şöbəsinin təşkilatçılığı ilə nazirliyin struktur bölmələrində və strukturuna daxil olan qurumlarında qulluq keçən dövlət qulluqçularının iştirakı ilə "Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları" ilə bağlı təlim təşkil edilmişdir. İştirakçılara etik davranış qaydaları, etik davranışın formalaşması və onun tənzimlənməsi ilə bağlı hüquqi mexanizmlərin inkişafı barədə məlumat verilmiş, "Etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununda qeyd edilən prinsiplərin mahiyyəti ətraflı izah edilmişdir. Dövlət qulluqçularının xidməti davranışı, qanunvericiliklə onlara verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrin yerinə yetirilməsi, peşəkar fəaliyyətin formalaşması istiqamətində müzakirələr aparılmışdır. Qanunda nəzərdə tutulan normalara əməl olunmasına və nəzarətin həyata keçirilməsinə dair izahlar verilmiş, etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırılması və ictimai etimadın bərpası istiqamətində fəaliyyətin ciddi nəzarətdə saxlanılmasının zəruriliyi qeyd edilmişdir. Eyni zamanda tədbirdə korrupsiya hüquqpozmaları, korrupsiyaya qarşı mübarizə və bu sahədə dövlət qulluqçularının rolu barədə danışılmış, korrupsiyanın inkişaf tarixi, Azərbaycanda və dünyada buna qarşı mübarizə sahəsində qanunvericiliyin inkişafı, cari vəziyyəti və nəzarət institutlarının formalaşması barədə maraqlı faktlar qeyd edilmişdir.

2022-ci il 20 may tarixində Dövlət Mülki Aviasia Agentliyi 27 dövlət qulluqçusu və 5 müddətli əmək müqaviləsi əsasında çalışan əməkdaşı üçün Agentliyin hüquqşünasları tərəfindən korrupsiyanın qarşısının alınması ilə bağlı təlim keçirilmişdir. Təlimdə korrupsiyanın qarşısının alınması, korrupsiya ilə əlaqədar hüquqpozmalar, müəyyən olunmuş məsuliyyət və nəticələrinin aradan qaldırılması ilə bağlı müzakirələr aparılmışdır. Tədbir məruzələr və verilmiş sualların cavablandırılması əsasında həyata keçirilmişdir.

2022-ci il 9 sentyabr tarixində Dövlət Mülki Aviasiya Agentliyinin 28 dövlət qulluqçusu və 6 müddətli əmək müqaviləsi əsasında çalışan əməkdaşı üçün Agentliyin hüquqşünasları tərəfindən "Etik davranış qaydaları" ilə bağlı təlim keçirilmişdir. Təlimdə əməkdaşlar etik davranış qaydaları, onlara əməl olunması və etik davranış qaydalarının pozulmasına görə məsuliyyət və nəticələrinin aradan qaldırılması ilə bağlı məlumatlandırılmışlar. Təlim məruzələr və verilmiş sualların cavablandırılması əsasında həyata keçirilmişdir.

2022-ci il 25 noyabr tarixində Dövlət qulluğu mövzusunda Nazirliyin İnsan resurslarının idarə edilməsi şöbəsinin müdir müavini tərəfindən nazirliyin əməkdaşları üçün dövlət qulluğu qanunvericiliyinə dair təlim təşkil olunub. Əməkdaşlara dövlət qulluğu qanunvericiliyinə dair, o cümlədən dövlət qulluqçularının hüquqları, vəzifələri, məsuliyyətləri və təminatları ilə bağlı təqdimat nümayiş olunub. Həmçinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası qanununun müvafiq maddələrinin praktiki izahı verilib.

**İnsan resurslarının idarə edilməsi şöbəsi**